# BALALAR ÜÇÜN

Azərbaycan Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı bir sıra digər sahələrdə olduğu kimi, latın qrafikasının tətbiqi ilə bağlı məsələlərdə də əsaslı dönüşə səbəb oldu. Məlumdur ki, kiçik yaşlı uşaqlarda və ibtidai sinif şagirdlərində təhsilə, elmə həvəs yaranmasında uşaq ədəbiyyatının, xüsusən, ədəbiyyatımızın klassikləri olan şair və yazıçıların əsərlərinin böyük əhəmiyyəti vardır. Bu əsərlərin bir çoxu Azərbaycan dilinin tədrisində ənənəyə çevrilərək, dillər əzbəri olmuşdur və ona görə də həmin əsərlərin latın qrafikası ilə yenidən nəşrinə hazırda böyük ehtiyac duyulur. Məktəbəqədər müəssisələrdə və ibtidai siniflərdə kiçik yaşlı uşaqların bilavasitə təlim-tərbiyəsi ilə məşğul olan tərbiyəçi və müəllimlərin, həmçinin kütləvi uşaq kitabxanaları işçilərinin fikrincə, bu kimi ədəbiyyat nümunələrinin uşaqlarda düzgün yazıb-oxumaq vərdişlərinin yaranmasında müstəsna rolu vardır.







Respublika Təhsil Nazirliyinin 14 avqust 2001-ci il tarixli, 900 saylı əmri ilə "Günün səsi" ictimai-siyasi qəzetinin redaksiyasında yenidən işlənib latın qrafikası ilə tərtib edilmiş bir sıra kitabların nəşrinə qrif verilmişdir. Abdulla Şaiqin "Tülkü Həccə gedir", "Tıq-tıq xanım", Abbas Səhhətin "Uşaq şerləri", Mikayıl Müşfiqin "Şəngül, Şüngül, Məngül" və Səməd Vurğunun "Azərbaycan" şer kitabları artıq işıq üzü görərək uşaqların istifadəsinə verilmişdir. Yeni nəşrlərə Dövlət Dil Komissiyasının üzvləri — təhsil naziri Misir Mərdanov, Milli Məclisin üzvü, Azərbaycanda Atatürk Mərkəzinin müdiri Nizami Cəfərov və Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Yusif Seyidov müsbət rəy vermişlər. Yenidən işlənmiş nəşrlərin redaktoru "Günün səsi" qəzetinin baş redaktoru Zöhrab Cəfərovdur. Ən müasir avadanlıqlarla təchiz edilmiş "CBS Polygrarhic Production" firmasının mətbəəsində yüksək poliqrafik göstəricilərlə və böyük tirajla nəşr edilmiş bu kitabları valideynlər və uşaqlar rəğbətlə qarşılamışlar. Hazırda "Azərbaycan nağılları", S.S.Axundovun "Qaraca qız", A.Səhhətin "Təmsillər", "Tərcümələr", M.Ə.Sabirin "Uşaq şerləri", C.Məmmədquluzadənin "Buz", Ə.Məmmədxanlının "Buz heykəl" və digər kitabların üzərində tərtibat işləri tamamlanmaq üzrədir. Yaxın günlərdə bu kitablar da balaca kitabsevərlərə çatdırılacaqdır.









**Malik MƏHƏMMƏDOĞLU**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü,
**Vəfa SEYİDOVA**
"Günün səsi" qəzetinin əməkdaşı